**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN FOLKLORUNDA ETİOLOJİ MİFLƏRİN SEMANTİKASI

**İxtisas:** **5719.01 – Folklorşünaslıq**

**Elm sahəsi:** **Filologiya**

**İddiaçı:** **Nərmin Ramiz qızı Babayeva**

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2025**

**Dissertasiya AMEA Folklor İnstitutunun Mifologiya şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

**Rəsmi opponentlər:** Filologiya elmləri doktoru, dosent
**İslam Hüseyn oğlu Sadıqov**

Filologiya elmləri doktoru, dosent
**Qalib Əmirağa oğlu Sayılov**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Məhəmməd Məmmədsəid oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, professor
________________ **Seyfəddin Gülverdi oğlu Rzayev**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru
________________ **Nizami Şamil oğlu Adışirinov**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, professor
________________ **Əfzələddin Dağbəyi oğlu Əsgərov**

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FOLKLOR İNSTİTUTU

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Etioloji miflərin semantikasının tədqiqi Azərbaycan folklorşünaslığının *aktual* mövzularındandır. Belə ki, milli folklorşünaslıqda mif məsələlərinə diqqət yetirilsə də, etioloji miflər ayrıca problem kimi hələ də öyrənilməmişdir. Bunun səbəbi miflərin təsnifatında etioloji miflərin yerinin müəyyənləşdirilməsinin çətinliyi ilə bağlıdır.

Folklorşünaslıqda mif mətnlərinin müxtəlif təsnifatları mövcuddur. Onlarda miflər, əsasən, mövzu baxımından ayrı-ayrı qruplara bölünmüşdür. Bəzi təsnifatlar mifləri daha böyük qruplarda əhatə etsə də, bəzilərində miflər daha kiçik qruplar halında təsnif olunmuşdur. Bütün bu təsnifatlar onları aparan tədqiqatçıların mifləri təsnif edərkən qarşılarına qoyduqları təsnifat prinsipindən asılı olmuşdur. Ona görə ki, hər bir mifoloq mifə öz ana ixtisası baxımından yanaşmışdır. İxtisası tarixçi olan mifoloq mifləri tarixi istiqamətdən, ixtisası filoloq olan mifoloq mətnləri daha çox mövzu-süjet baxımından, ixtisası filosof olan mifoloq daha çox fəlsəfi kateqoriyalar (həyat, ölüm, zaman, məkan, başlanğıc, son və s. anlayışlar) baxımından təsnif etmişdir. Ona görə də bu gün mif mətnlərinin təsnifi sahəsində müxtəlif bölgülər mövcuddur. Onlara bir küll halında nəzər saldıqda görünür ki, təsnifatların heç də hamısında etioloji miflər ayrıca qrup kimi göstərilməmişdir. Bunun etioloji miflərin semantikası ilə bağlı çox ciddi səbəbləri vardır. Belə ki, etioloji mif mətnlərini miflərin ümumi mətnindən ayırmaq çox çətin məsələdir. Bu çətinlik tədqiqatçıları etioloji miflərin tədqiqindən çəkindirməsinə səbəb olduğu kimi, Azərbaycan folklorşünaslığında da etioloji miflər indiyə qədər ayrıca kateqoriya olaraq öyrənilməmişdir.

Etioloji miflərin ayrıca tematik qrup halında öyrənilməsinin çətinliyi ümumiyyətlə bütün miflərin etioloji funksiyaya malik olmasından irəli gəlir. Belə ki, janrından, həcmindən, mövzusundan asılı olmayaraq, istənilən mif mətni etioloji funksiya daşıyır. “Etiolojilik” – hərfən izahedicilik mənasındadır. Bu cəhətdən, hər hansı bir mif mətninin sırf etioloji mif olub-olmamasından asılı

olmayaq, o, etioloji funksiyaya malikdir. Yəni bütün miflər bütün hallarda dünyanın, onun ayrı-ayrı hissə və elementlərinin necə yaranmasını, hansı funksiya daşımasını və s. izah edir. Nəzəri-metodoloji çətinlik və bəzən də çıxılmazlıq elə bununla bağlıdır. Bütün miflər izahedici funksiyaya malik olduğu halda, onların ümumi kütləsindən vəzifəsi (funksiyası) sırf etiologiya, yəni izahetmə olan etioloji mifləri necə ayırmaq sualı folklorşünaslığın ən aktual problemlərindəndir. Bu problem Azərbaycan folklorşünaslığında indiyədək özünün monoqrafik həllini tapmamışdır. Mövcud dissertasiya bu aktual vəzifənin, yəni etioloji miflərin ümumi miflərdən necə ayrılmasının prinsiplərinə, onların ümumiləşdirilməsi, sistemləşdirilməsi və semantikasının izah olunması məsələlərinə həsr olunmuşdur.

*Mövzunun öyrənilmə dərəcəsi* barəsində qeyd etməliyik ki, etioloji miflərdən əsasən, dünya folklorşünaslığında bəhs olunmuşdur. Bu mövzu haqqında Azərbaycan folklorşünaslığında ayrıca olaraq yalnız prof. Ramazan Qafarlı özünün "Azərbaycan-türk mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası)" adlı tədqiqatının "Azərbaycan-türk miflərinin tematik-klassifikativ strukturu" adlanan dördüncü fəslində geniş şəkildə danışmışdır[1].

Qeyd edək ki, Azərbaycan folklorşünaslığında etioloji mif qrupuna daxil olan mətnlər bu ad altında olmasa da, müxtəlif problemlər baxımından geniş tədqiq olunmuşdur. Ancaq həmin mətnlərin etioloji mif kateqoriyasına daxil olan miflər kimi semantikası bu dissertasiyaya qədər heç vaxt ayrıca monoqrafik tədqiqatın predmeti olmamışdır.

**Dissertasiyanın obyekti və predmeti.** Etioloji miflərin semantikasının tədqiqi Azərbaycan mifoloji mətnləri üzərində aparıldığı üçün işin *obyektini* Azərbaycan epik folklorunun müxtəlif janrlarında (əfsanə, rəvayət, dastan və s.) olan mif mətnləri təşkil edir.

---

[1] Qafarlı, R. Azərbaycan-türk mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası) / R.Qafarlı. – Bakı: ADPU-nun nəşri, – 2010, – 414 s.

Dissertasiyanın *predmetini* etioloji miflərin digər tematik qruplarından ayrılmasının prinsipləri və semantikasının tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın qarşısında duran əsas məqsəd etioloji miflərin semantikasının öyrənilməsidir.

Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

a) Etioloji miflərin mifoloji mətnlər sistemindəki yerinin müəyyənləşdirilməsi və nəzəri səciyyəsinin verilməsi;

b) Oğuz epik mifoloji ənənəsinin etioloji semantikasının tədqiqi;

c) Real-fiziki dünya obrazlarının yaranması haqqında etioloji miflərin (dünyanın yaranması, Günəş, Ay, ulduzlar, dağlar, sular, insanlar, heyvanlar və bitkilərin yaranması haqqında miflərin) tədqiqi;

ç) Metafiziki dünya obrazlarının (hal anası-alarvadılar, cinlər, Qaraçuxa, Ucubılıx, müqəddəs məkanlar, dönərgə obrazları) yaranması haqqında etioloji miflərin tədqiqi;

ç) Mifoloji mətnlərdə ilahi cəza motivinin etioloji semantikasının tədqiqi;

d) Mifik zaman obrazlarının etiologiyasının tədqiqi.

**Tədqiqatın metodları.** Etioloji miflərin semantikasının tədqiqinə həsr olunmuş dissertasiya işi mükəmməl və zəngin nəzəri-metodoloji bazaya əsaslanır. Bu bazanın iki əsas mənbəyi var: dünya və Azərbaycan folklorşünaslığının mif mətnlərinin öyrənilməsi sahəsində yaratdığı nəzəri təcrübə.

Azərbaycan mifologiya elmi öz başlanğıcını akademik Mirzə Kazımbəyin rus dilində yazdığı "Firdovsidə farsların mifologiyası" adlı əsərindən götürmüşdür[2]. Daha sonra Azərbaycan mifologiya elmi Y.V.Çəmənzəminli, Əhməd Cəfəroğlu, Mirəli Seyidov, Məmmədhüseyn Təhmasib kimi tədqiqatçıların mifologiya

---

[2] Казем-бек, М. Мифология персов по Фирдоуси / М.Казем-бек. Избранные произведения. – Баку: Элм, – 1985, – с. 306-318

mövzusundakı əsərləri ilə inkişaf etmişdir[3]. Bu tədqiqatlarda daha çox mifik obrazların semantikasından bəhs olunmuşdur. Mifologiya sahəsində çoxsaylı məqalə və kitabların müəllifi olan M.Seyidov mifologiyaya daha çox Azərbaycan xalqının etnogenezini (soykökünü, mənşəyini) araşdırmaq üçün müraciət etmişdir. Bu cəhətdən, sözü gedən araşdırmalarda etioloji miflərə ayrıca şəkildə toxunulmamışdır.

Müasir dövrdə Azərbaycan mifologiya elminin nəzəri-metodoloji bazasının formalaşmasında Kamal Abdulla, İsrafil Abbaslı, Paşa Əfəndiyev, Muxtar Kazımoğlu, Azad Nəbiyev, Kamil Vəliyev (Kamil Vəli Nərimanoğlu), Ramazan Qafarlı, Asif Hacılı, Məhərrəm Cəfərli, Ağayar Şükürov, Qəzənfər Paşayev, Cəlal Bəydili (Məmmədov), Füzuli Bayat, Ramil Əliyev, Rüstəm Kamal, Əfzələddin Əsgər, İslam Sadıq, Seyfəddin Rzasoy, Səhər Orucova, Məhəmməd Məmmədov, Nail Qurbanov, Fidan Qasımova[4] və başqalarının böyük rolu vardır. Sözü gedən alimlərin

---

[3] Çəmənzəminli, Y.V. Azərbaycan nağıllarının əhval-ruhiyyəsi / Y.V.Çəmənzəminli. Əsərləri, 3 cilddə, III c. – Bakı: Elm, – 1977, s. 44-47; Çəmənzəminli, Y.V. Xalq ədəbiyyatının təhlili / Y.V.Çəmənzəminli. Əsərləri, 3 cilddə, III c. – Bakı: Elm, – 1977, s. 62-73; Çəmənzəminli, Y.V. Azərbaycanda zərdüşti adətlər / Y.V.Çəmənzəminli. Əsərləri, 3 cilddə, III c. – Bakı: Elm, – 1977, s. 83-89; Caferoğlu, A. Türklerde Sihirli Taş Telakkisi // "Halk Bilgisi Haberleri", – Yıl: 2, – İstanbul: 1930, – Sayı 13, – s. 1-6; Caferoğlu, A. Anadolu ve Azerbaycan Cocuk Folklorunda Şamanizm Bakiyesi // "Türklük Mecmuası", – Cilt 1, – İstanbul: 1939, – Sayı 2, – s. 144-149; Caferoğlu, A. Azeri Türk Hayatında Batil İtikatlar // "Türklük Mecmuası", – Sayı 3, – İstanbul: 1939, – s. 194-206; Caferoğlu A. Azerbaycan ve Anadolu Folklorunda Saklanan İki Şaman Tanrısı // Ankara Universitesi İlahiyet Fakültesi Dergisi, – Cilt 1-4, – Ankara: 1958, – s. 65-75; Seyidov, M. Azərbaycan mifik təfəkkürünün qaynaqları / M.Seyidov. – Bakı: Yazıçı, – 1983, – 326 s.; Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.Seyidov. – Bakı: Yazıçı, – 1989, – 496; Seyidov, M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış / M.Seyidov. – Bakı: Gənclik, – 1994, – 232 s.; Təhmasib, M. Əfsanəvi quşlar // "Vətən uğrunda" jurnalı, – 1945, – № 5, – s. 93-101; Təhmasib, M. Azərbaycan xalq ədəbiyyatında div surəti // "Vətən uğrunda" jurnalı, – 1946, – № 1, – s. 79-92

[4] Abdulla, K. Mifdən Yazıya və yaxud gizli Dədə Qorqud / K.Abdulla. – Bakı: Mütərcim, – 2009, – 376 s.; Abbaslı, İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri / İ.Abbaslı. – Bakı: Nurlan, – 2007, – 272 s.; Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Əfəndiyev. –Bakı: Maarif, – 1981, – 403

s.; Kazımoğlu, M. Folklorda obrazın ikiləşməsi / M.Kazımoğlu. – Bakı: Elm, – 2011, – 228 s.; Nəbiyev, A. Azərbaycan mifologiyası // "Folklorşünaslıq məsələləri" jurnalı, – 2002, – V buraxılış, – s. 6-92; Qafarlı, R. Mif və nağıl (Epik ənənədə janrlararası əlaqə) / R.Qafarlı. – Bakı: ADPU nəşri, – 1999, – 448 s.; Qafarlı, R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə) / R.Qafarlı. – Bakı: ADPU nəşri, – 2002, – 758 s.; Qafarlı, R. Azərbaycan türklərinin mifologiyası (bərpa, genezis) / R.Qafarlı. – Bakı: Ağrıdağ, – 2004, – 232 s.; Qafarlı, R. Azərbaycan türklərinin mifologiyası (mifik dünya modeli, təsnifat) / R.Qafarlı – Bakı: Ağrıdağ–, 2004, – 236 s.; Qafarlı, R. Azərbaycan-türk mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası) / R.Qafarlı. – Bakı: ADPU-nun nəşri, – 2010, – 414 s.; Qafarlı, R. Günəş səhərlər dağlardan boylanır (müəqəddimə) / Ə.Tanrıverdi. "Dədə Qorqud kitabı"nda dağ kultu. – Bakı: Elm və təhsil, – 2013, – s. 3-7; Qafarlı, R. Mifologiya [6 cilddə]. Mifogenez: rekonstruksiya, struktur, poetika / R.Qafarlı. – Bakı: Elm və təhsil, – Cild 1. – 2015. – 454 s.; Qafarlı, R. Mifologiya [6 cilddə]. Ritual-mifoloji rekonstruksiya problemləri / R.Qafarlı. – Bakı: Elm və təhsil, – Cild 2. – 2019. – 432 s.; Hacılı, A. Mifopoetik təfəkkür fəlsəfəsi / A.Hacılı. – Bakı: Mütərcim, – 2002, 164 s.; Cəfərli, M. Dastan və mif / M.Cəfərli. – Bakı: Elm, – 2001, – 188 s.; Şükürov, A. Dədə Qorqudun mifologiyası / A.Şükürov. – Bakı: Elm, – 1999, – 100 s.; Şükürov, A. Mifologiya. I kitab. Azərbaycan mifologiyası. / A.Şükürov. – Bakı: Elm, – 1995, – 188 s.; Şükürov, A. Mifologiya. 6-cı kitab. Qədim türk mifologiyası / A.Şükürov. – Bakı: Elm, – 1997, – 228 s.; Paşayev, Q. İraq-Türkman folklorunun janrlar sistemi / Q.Paşayev. – Bakı: Bakınəşr, – 2003, – 128 s.; Vəliyev, K. Elin yaddaşı, dilin yaddaşı / K.Vəliyev. – Bakı: Gənclik, – 1987, – 280 s.; Bayat, F. Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı / F.Bayat. – Bakı: Sabah, – 1993. – 194 s.; Bayat, F. Folklor dərsləri / F.Bayat. – Bakı: Elm və təhsil, – 2012. – 424 s.; Bayat, F. Mitolojiye Giriş / F.Bayat. – Çorum: Kara M, – 2005, – 150 s.; Bayat. F. Oğuz Destan Dünyası, Oğuznamlerin Tarihi, Mitolojik Kökenleri ve Teşekkülü / F.Bayat. – Ankara: Ötüken, – 2006, – 328 s.; Bəydili (Məmmədov), C. Türk mifoloji sözlüyü / C.Bəydili (Məmmədov). – Bakı: Elm, 2003, – 418 s.; Bəydili (Məmmədov), C. İstiqbal xalq ədəbiyyatınındır... (seçmə yazılar) / C.Bəydili (Məmmədov). – Bakı: Elm və təhsil, 2015, – 312 s.; Əliyev, R. Riyazi mifologiya / R.Əliyev. – Bakı: Nurlan, – 2008, – 182 s.; Əliyev, R. Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları / R.Əliyev. – Bakı: Elm, – 2014, – 332 s.; Kamal, R. "Kitabi-Dədə Qorqud": nitq janrları və davranış poetikası / R.Kamal. – Bakı: Nurlan, – 2013, 148 s.; Əsgər, Ə. Oğuznamə yaradıcılığı / Ə.Əsgər. – Bakı: Elm və təhsil, – 2013. – 340 s.; Sadıq, İ. Şumer və türk dastanları / İ.Sadıq. – Bakı: Azərnəşr, – 2012, 208 s.; Rzasoy, S. Oğuz mifinin paradiqmaları / S.Rzasoy. – Bakı: Səda, – 2004, – 200 s.; Rzasoy, S. Oğuz mifologiyası (metod, struktur, rekonstruksiya) / S.Rzasoy. – Bakı: Nurlan, – 2009, – 363 s.; Orucova, S. Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri / S.Orucova. –

tədqiqatları mifologiyanın ən müxtəlif problemlərinə həsr olunmuş və onlarda miflərin etioloji (izahedici) funksiyası məsələlərinə də toxunulmuşdur.

Dünya elmi-nəzəri fikrinə gəldikdə biz etioloji miflərlə bağlı əsaslandırılmış fikirlərə daha çox Y.M.Meletinskinin və S.A.Tokarevin tədqiqatlarında rast gəlirik[5]. Digər tədqiqatlarda miflərin etioloji funksiyasından danışılsa da, etioloji miflərin mənası, mahiyyəti, funksiyası, digər miflərdən fərqi və oxşarlığı barədə bu iki rus alimi ətraflı bəhs etmişdir.

Dissertasiyada tarixi-müqayisəli və müqayisəli-tipoloji tədqiqat metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Müdafiəyə tədqiqatda irəli sürülmüş və öz elmi həllini tapmış bu müddəalar çıxarılır:

1) Etioloji miflərin dünya mifoloji sistemlərində olduğu kimi, Azərbaycan mifoloji mətnlər korpusunda da ayrıca qrupu təşkil etməsi;

2) Etioloji miflərin funksional semantikasının ümumən miflərin etioloji-izahedici funksiyasından fərqləndirilməsi;

3) Etioloji miflərin kosmoqonik miflərdən fərqi;

4) Oğuz etioloji miflərinin semantik xüsusiyyətləri;

5) Real-fiziki dünya obrazlarının yaranması haqqında etioloji miflərin əsas xüsusiyyətləri;

6) Metafiziki dünya obrazları haqqında miflərin etioloji səciyyəsi;

---

Bakı: Elm və təhsil, – 2012. – 536 s.; Məmmədli, M. Azərbaycan mifoloji mətnlərinin təsnifi // “Dil və ədəbviyyat” jur., – 1997, – № 3, – s. 94-97; Qurbanov, N. Azərbaycan folklorunda mifoloji-kosmoqonik görüşlər / N.Qurbanov. – Bakı: AFpoliQRAF, – 2011, – 144 s.; Qasımova, F. Türk mifologiyasında mədəni qəhrəman problemi / F.Qasımova. – Bakı: Nurlan, – 2012, – 164 s.

[5] Мелетинский, Э.М. Поэтика мифа / Э.М.Мелетинский. – Москва: Наука, – 1976, – 407 с.; Мелетинский, Е.М. Общее понятие мифа и мифологии / Мифологический словарь. Гл. ред. Е.М.Мелетинский. – Москва: Советская энциклопедия, – 1990, – с. 634-640; Токарев, С.А. Этиологические мифы / Мифы народов мира. В 2-х томах. Том 2. – Москва: Советская энциклопедия, – 1982, – с. 672

7) Mifik zaman obrazlarının etioloji səciyyəsi.

**Tədqiqatın elmi yenilikləri.** Dissertasiyada tədqiq olunan problemlə bağlı aşağıdakı mühüm elmi yeniliklər əldə olunmuşdur:

– Miflərin müxtəlif təsnifat sistemlərinin tədqiqi nəticəsində etioloji miflərin xarakterik nəzəri xüsusiyyətləri müəyyənləşdirilmişdir.

– Azərbaycan mif mətnləri əsasında etioloji miflərin izahedicilik funksiyası ilə bütün miflərin izahedicilik funksiyası arasındakı fərqlər üzə çıxarılmışdır.

– Azərbaycan mif mətnləri əsasında etioloji miflərlə kosmoqonik miflərin fərqi müəyyənləşdirilmişdir.

– “Oğuz kağan” dastanında etioloji mif layı bərpa olunmuş, funksiyası öyrənilmişdir.

– Dünyanın, insanın, göy cisimlərinin, suların, heyvanların və bitkilərin yaranması haqqındakı miflərin əsas etioloji semantikasının insanla cəmiyyət, insanla təbiət arasında sosial-mənəvi harmoniyanın yaradılması ilə bağlı olduğu üzə çıxarılmışdır.

– Azərbaycan mifoloji mətnlər korpusunda hal anası (alarvadı), cin kimi metafizik-fantastik obrazlar haqqındakı miflərin etioloji semantikasının insanın şəri təmsil edən metafizik qüvvələrlə necə davranması, özünü onlardan necə qoruması ilə bağlı olması müəyyənləşdirilmişdir.

– Qaraçuxa obrazının etiologiyasının insanla onun qoruyucu məni arasındakı münasibətlərin nizamlanmasına xidmət etdiyi aşkar edilmişdir.

– Müqəddəs məkanlar, dönərgə obrazlar (qurda çevrilən insanlar, ilan-insanlar) haqqındakı miflərin etioloji semantikasının əsasında insan-təbiət münasibətlərinin nizamlanması məsələlərinin durması müəyyənləşdirilmişdir.

– Daşa dönmələr, ilahi cəzalar haqqında miflərin etioloji semantikasının sosial-mənəvi harmoniya yaradılması ilə bağlı olduğu üzə çıxarılmışdır.

– Təqvim miflərinin etioloji semantikasının insan-zaman münasibətlərində harmoniyanın qorunması olduğu müəyyənləşdirilmişdir.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin mühüm nəzəri və praktiki əhəmiyyəti var. Dissertasiyanın nəzəri aktuallığı tədqiqatda əldə olunmuş elmi yeniliklərin mifologiya ilə bağlı digər tədqiqatlarda istifadə olunma imkanları ilə şərtlənir.

Tədqiqatın praktiki aktuallığına gəldikdə isə bu, dissertasiyadan ali məktəblərin filologiya fakültələrində həm mifologiyanın tədrisində praktiki elmi vəsait kimi istifadə olunma imkanları ilə şərtlənir.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Tədqiqatda əldə olunmuş mühüm nəticə və yeniliklər müəllifin ölkənin daxili və xaricində Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi orqanlarda nəşr etdirdiyi məqalələrdə əhatə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** İş Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Mifologiya şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın mövzusu AMEA Folklor İnstitutunun Elmi Şurasının 09 aprel 2018-ci il (protokol №2) və Respublika Əlaqələndirmə Şurasının 31 may 2022-ci il tarixli (protokol №2) protokollarının qərarları ilə təsdiq olunmuşdur.

**Dissertasiyanın ümumi həcmi**: Giriş, üş fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olan işin ümumi həcmi 267246 işarədir: Giriş:  9863 işarə; I fəsil: 81776 işarə; II fəsil: 82466 işarə; III fəsil: 85000 işarə, Nəticə: 8 241 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Giriş"** bölümündə mövzunun aktuallığı, öyrənilmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

**Dissertasiyanın** (üç paraqrafdan və bir bənddən ibarət) **"Etioloji mif, onun miflərin təsnifat sistemindəki yeri və kosmoqonik mifə bağlılığı" adlanan birinci fəslində** göstərilir ki, etioloji miflərin semantikasının tədqiqi ilk növbədə "etioloji mif" anlayışının aydınlaşdırılmasını tələb edir. Etioloji miflər funksiyası

sırf izahedicilikdən ibarət olan miflərdir. Ancaq bu prinsip, əlamət onların semantikasının öyrənilməsi üçün heç də kifayət qədər güclü arqument deyildir. Çünki digər miflər də dünyanı, varlıq aləmini izah edir. İzahedicilik ümumi bir prinsipdir və miflərin mövzu baxımından bütün növlərinə aiddir.

***Birinci fəslin "Miflərin təsnifatı və etioloji miflərin bu təsnifatdakı yeri" adlanan birinci paraqrafında***[6] qeyd olunur ki, "etiologiya" yunan sözüdür və hərfi mənası "səbəb" deməkdir. Bu cəhətdən, etioloji miflər dünyanın, insanların, adət-ənənələrin, əlamətdar günlərin və s. yaranma səbəblərini izah edən mif mətnləridir.

Bütün miflər, əslində, yaradılışı izah edir. Lakin bununla bərabər, tədqiqatçılar bəzən mif mətnləri içərisində etioloji mifləri ayrıca qrup götürməyi də vacib hesab edirlər. Lakin bu, mifləri təsnif etmiş bütün tədqiqatçılara eyni dərəcədə aid deyildir. Elə məşhur təsnifatlar var ki, onlarda etioloji miflər ayrıca qrup kimi götürülməmişdir (E.B.Taylor, S.Q.Klyaştornı, A.Nəbiyev, A.Acalov, A.Şükürov, M.Məmmədli)[7].

Etioloji miflərin ayrıca qrup halında təsnif edilməsinə görkəmli rus alimi Y.M.Meletinskinin və S.A.Tokarevin əsərlərində rast gəlirik. Onların tədqiqatlarından məlum olur ki, etioloji mifləri mifin digər məna növlərindən fərqləndirməyin əsas

---

[6] **Paraqafda əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Miflərin təsnifatı və etioloji miflərin bu təsnifatdakı yeri // "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" jur., – 2018, – № 2, – s. 124-131

[7] Тайлор, Э.Б. Первобытная культура / Э.Б.Тайлор. – Москва: Политиздат, – 1989, – s. 150-204; Кляшторный, С.Г. Мифологические сюжеты в древнетюркских памятниках // Тюркологический сборник. – Москва: 1981, – s. 120; Nəbiyev, A. Azərbaycan mifologiyası // "Folklorşünaslıq məsələləri" jurnalı, – 2002, – V buraxılış, – s. 72; Acalov, A. Ön söz / Azərbaycan mifoloji mətnləri. Tərtib edəni, ön sözün və şərhlərin müəllifi A.Acalov. – Bakı: Elm, – 1988, – s. 14; Şükürov, A. Mifologiya. I kitab. Azərbaycan mifologiyası. / A.Şükürov. – Bakı: Elm, – 1995, s. 17; Məmmədli, M. Azərbaycan mifoloji mətnlərinin təsnifi // "Dil və ədəbviyyat" jur., – 1997, – № 3, – s. 93-96

prinsipi **mənşə və mahiyyəti** bir-birindən fərqləndirməklə bağlıdır: *Etioloji miflər* ən qədim və sadə miflər olub, dünyanın və onun müxtəlif elementlərinin yalnız *mənşəyini* (mifik obrazların haradan, nədən yaranmasını) izah etdiyi halda, miflərin digər məna növləri dünya ünsürlərinin mənşəyi ilə bərabər, onların *mahiyyətini* (quruluşunu, digər ünsürlərlə əlaqəsini və s.) izah edir[8].

***Birinci fəslin "Azərbaycan folklorşünaslığında etioloji mif problemi" adlanan ikinci paraqrafında*** [9] göstərilir ki, Azərbaycan folklorşünaslığında mifin etioloji funksiyası məsələsindən az bəhs olunmuşdur[10].

Etioloji miflərdən geniş şəkildə prof. Ramazan Qafarlı bəhs etmişdir. Müəllif bu problemlə bağlı "Azərbaycan-türk mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası)" adlı monoqrafiyasının "Azərbaycan-türk miflərinin tematik - klassifikativ strukturu" adlanan dördüncü fəslində ətraflı danışmışdır[11].

---

[8] Мелетинский, Э.М. Поэтика мифа / Э.М.Мелетинский. – Москва: Наука, – 1976, – s. 133; Мелетинский, Е.М. Общее понятие мифа и мифологии / Мифологический словарь. Гл. ред. Е.М.Мелетинский. – Москва: Советская энциклопедия, – 1990, – s. 635-637; Токарев, С.А. Этиологические мифы / Мифы народов мира. В 2-х томах. Том 2. – Москва: Советская энциклопедия, – 1982, – с. 672

[9] **Paraqafda əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Prof. Ramazan Qafarlının tədqiqatlarında etioloji mif probleminə baxış // ""Ziyalı işığında" Ramazan Qafarlı – 70" beynəlxalq elmi simpoziumu, – 15-16 iyul 2021, – s. 210-217

[10] Əliyev, R. Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları / R.Əliyev. – Bakı: Elm, – 2014, – s. 66; Cəfərli, M. Dastan və mif / M.Cəfərli. – Bakı: Elm, – 2001, – s. 49; Rzasoy, S. Folklorda vətən obrazının mifoloji semantikası // "Dədə Qorqud" jur., – 2017, – № 2, – s. 33; Qaliboğlu, E. Yaradılış mifləri və Azərbaycan əfsanələri / E.Qaliboğlu. – Bakı: Elm və təhsil, – 2020, – s. 60

[11] Qafarlı, R. Azərbaycan-türk mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası) / R.Qafarlı. – Bakı: ADPU-nun nəşri, – 2010, – 414 s.

***Birinci fəslin "Etioloji miflər kosmoqonik miflərin tərkib hissəsi kimi" adlanan üçüncü paraqrafında***[12] qeyd olunur ki, etioloji miflərin digər mif qruplarından fərqləndirilməsinin əsas çətinliklərindən biri də onların funksiya baxımından kosmoqonik miflərlə, demək olar ki, tam şəkildə üst-üstə düşməsidir. Çünki etioloji və kosmoqonik miflərin hər ikisi yaradılışı izah edir. Lakin bununla bərabər onların arasında mühüm bir fərq vardır. kosmoqonik miflər dünyanın yaranmasını, etioloji miflər isə onun müxtəlif elementlərinin necə yaranmasını izah edir. Kosmoqonik miflər dünyaya bütöv şəkildə, etioloji miflər ayrı-ayrı elementlər səviyyəsində yanaşır. Kosmoqonik miflər dünyanın yaranmasını bütövlükdə izah etməklə onun təkcə mənşəyini yox, həm də mahiyyətini, yəni nə olmasını, necə olmasını, nəyə xidmət etməsini aydınlaşdırır. Etioloji miflər isə yalnız müxtəlif elementlərin haradan gəldiyini, nədən yarandığını göstərir.

***Birinci fəslin üçüncü paraqrafının ""Oğuz kağan" dastanında kosmoqoniya və etiologiya" adlanan birinci bəndində***[13] göstərilir ki, etioloji miflə kosmoqonik mif arasındakı münasibətlərin bütün semantikasını "Oğuznamə" dastanının uyğur versiyasında müşahidə etmək mümkündür. "Oğuznamə"nin bu versiyasından başqa. Bütün digər variantları İslam ideologiyasını əks etdirir. Yalnız "Oğuznamə"nin uyğur versiyası olan "Oğuz kağan" dastanı İslam ideologiyası ilə deyil, oğuzların mifoloji görüşləri ilə bağlıdır. Bu dastanın əsasında duran "Oğuz kağan" mifi poetikası baxımından kamil kosmoqonik mifdir. Burada kosmoqonik miflərin təbiətinə uyğun olaraq dünyanın yaranmasının təkcə mənşəyi deyil, həm də mahiyyəti də izah olunur. Lakin bu mifdə mənşəyin izahı mahiyyətin izahına tabedir, başqa sözlə, mənşəyin izahı mahiyyətin izahına xidmət edir. Mifdə Oğuz dünyasının (təbiətin və cəmiyyətin, məkanın və zamanın)

---

[12] **Paraqafda əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Etioloji miflər və kosmoqoniya // "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" jur., – 2021, – № 2, – s. 130-140

[13] **Bənddə əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Oğuz Kağan" dastanında kosmoqoniya və etiologiya // "Dil və ədəbiyyat" beynəlxalq elmi jurnalı, – 2021, – № 2, – s. 355-361

mənşəyini aydın şəkildə müşahidə edirik. Yaranış Ay kağandan başlanır, Oğuzla başlanan yaranış onun altı oğlu, 24 nəvəsi ilə davam edir və həmin nəvələrdən bütün Oğuz xalqının yaranması ilə tamamlanır. Ancaq bu mifə diqqətlə fikir verdikdə onun əsas semantikasının dünyanın mənşəyinin izahı yox, quruluşunun, mahiyyətinin izahı ilə bağlı olduğu görünür.

**Dissertasiyanın** (yeddi paraqrafdan ibarət) **"Real-fiziki dünya obrazlarının yaranması haqqında etioloji miflər" adlanan ikinci fəslində** bütöv dünyanın, Günəş, Ay və ulduzların, dağların, suların, insanların, heyvanların və bitkilərin yaranması haqqındakı miflərin etioloji semantikası tədqiq olunmuşdur.

***İkinci fəslin "Dünyanın yaranması haqqında miflərin etioloji semantikası" adlanan birinci paraqrafında***[14] deyilir ki, yerin, göyün və ümumiyyətlə, dünyanın yaranması haqqındakı mifləri müqayisə etdikdə çox maraqlı etioloji mənzərə ilə üzləşirik. Belə ki, bu miflərin əksəriyyətinin məzmunu ümumən eynidir, lakin mətndən-mətnə məzmunla bağlı müxtəlif təfərrüatlara, fərqli detallara rast gəlirik. Yəni dünyanın yaranması haqqındakı mif sanki məzmunca genişlənir. Məs., miflərdən birində deyilir ki, lap qabaqlar Allahdan başqa heç kim yox imiş. Yer üzü də başdan-ayağa su imiş. Allah bu lili su edir. Sonra bu lili qurudub torpaq edir. Sonra torpaqdan bitkiləri cücərdir. Ondan sonra da torpaqdan palçıq qayırıb, insanları yaradır, onlara ruh verir[15].

Bu mətn yaradılışı nəql edir. Dünyanın yaradılışından bəhs edən mif tipologiyasına görə kosmoqonik mifdir. Çünki burada bütöv bir kosmoqonik proses təsvir olunmuşdur. Ancaq mifin sadə quruluşa malik olması, dünyanın yaradılışının səbəbini, yəni mənşəyini izah etməsi ümumi planda kosmoqonik mif olan bu mətnin daha çox etioloji mif olduğunu söyləməyə imkan verir. Çünki bu mətndə dünyanın yaradılış prosesinin mahiyyətindən daha çox mənşəyi izah olunmuşdur.

---

[14] **Paraqafda əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Dünyanın yaranması haqqında miflərin etioloji semantikası // "Filologiya məsələləri" jur., – 2021, – № 11, – s. 286-294

[15] Azərbaycan mifoloji mətnləri / Tərtib edəni, ön sözün və şərhlərin müəllifi: A.Acalov. – Bakı, Elm, – 1988, – s. 35

***İkinci fəslin "Günəş, Ay və ulduzlar barəsindəki miflərin etioloji məna qatları" adlanan ikinci paraqrafında***[16] göstərilir ki, Azərbaycan folklorunda Günəş və Ay haqqında çoxlu miflər vardır. Günəş və Ay haqqındakı miflərdə, əsasən, aşağıdakı etioloji aktların səbəbləri izah olunur:

1. Günəşin niyə gündüz, Ayın gecə çıxmasının səbəbləri;
2. Ayın üzündəki ləkənin səbəbləri.

Mətnlərdən aydın olur ki, Ayın üzündəki ləkə anasının onu cəzalandırması ilə bağlıdır. Göy ana qızı Günəşə gündüz, oğlu Aya gecə gəzməyi tapşırır. Ay razılaşmır, ana onu xəmirli əli ilə vurur və Ayın üzündə ləkə qalır[17].

***İkinci fəslin "Dağların yaranışı haqqında etioloji miflər" adlanan üçüncü paraqrafında*** vurğulanır ki, Azərbaycan mifoloji mətnləri içərisində dağlar haqqında çoxlu etioloji və kosmoqonik xarakterli mətnlər vardır. Bu da dağların qədim türk mifik görüşlərində özünə geniş yer tutması ilə əlaqədardır. Qədim insanlar dağları kultlaşdırmış, yəni onları inanc, pərstiş obyektinə çevirmiş, dağlara əcdad, valideyn, insanları himayə edən ruhların yaşadığı müqəddəs məkan kimi yanaşmışlar. Azərbaycan etioloji miflərində dağların əmələ gəlməsinin, yaxud onların qəribə görkəminin, yaxud da hansısa qayasının əmələ gəlməsinin səbəbləri izah olunur. Məs., mətnlərdən birində deyilir ki, Ələyiz dağının başı haçadır. Deyirlər ki, Ağrı dağı ilə Ələyiz dağı vuruşub, Ağrı güclü olub, vurub Ələyizin başını paralayıb[18].

Mətnin etioloji semantikasına görə, Ələyiz dağının başının haça olması onun Ağrı dağı ilə apardığı konfliktin nəticəsidir.

---

[16] **Paraqafda əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Astral cisimlər barəsindəki miflərin etioloji məna aləmi // İnternational scıentıfıc symposıum. "New Approaches and Searches in Science", – Ankara, – Türkiyə, – 2021 – Decabr 2-3, – s. 50-57; Babayeva, N. Günəş haqqında miflərin etioloji semantikası // "Dədə Qurqud" jur., – 2022, – № 3, – s. 69-78

[17] Azərbaycan folkloru antologiyası. IV kitab. Şəki folkloru, I cild / Tərtib edənlər: H.Əbdülhəlimov, R.Qafarlı, O.Əliyev, V.Aslan. – Bakı: Səda, – 2000. – s. 46

[18] Azərbaycan mifoloji mətnləri / Tərtib edəni, ön sözün və şərhlərin müəllifi: A.Acalov. – Bakı, Elm, – 1988, – s. 41

Buradan aydın olur ki, dağlar insan kimi təsəvvür olunmuşdur. Ağrı dağı güclü olduğu üçün konflikt onun xeyrinə həll olunmuşdur. Mifin etioloji semantikasının əsasında yeni kosmosun yaranması durur.

***İkinci fəslin "Suların yaradılış etiologiyası" adlanan dördüncü paraqrafında*** deyilir ki, Azərbaycan folklorunda su ilə bağlı çoxlu mif mətnləri vardır. Burada dəniz, göl, çay, bulaq və s. yaranmasından bəhs olunur. Onlardan aydın olur ki, su ilkin yaradılışın ən mühüm ünsürüdür. Bu mətnlərin hamısı yeni yaradılışı simvolizə edir və onların hamısında su ünsürünün ilkin yaradılışla bağlı kosmoqonik funksiyası aydın şəkildə müşahidə olunur.

***İkinci fəslin "İnsanın yaranmasını nəql edən miflərin etioloji məna xüsusiyyətləri" adlanan beşinci paraqrafında*** bildirilir ki, mifologiyada insanın yaradılışı ən mühüm mövzulardandır. Azərbaycan folklorunda da insanın yaranması haqqında maraqlı etioloji miflər vardır. Onlar məzmunca rəngarəng olub, insanın özünün yaranmasından tutmuş onun varlığının müxtəlif tərəflərini əhatə edir. Bu miflərin bir əsas cəhəti də onların islami görüşlərlə qaynayıb-qarışmasıdır. Mətnlərdən birində deyilir ki, bizim əcdadımız Adam atadır. Onu torpaqdan qayırıblar. Özü də çox köntöy qayırmışlar. Görüblər ki, çox yoğundu, başlayıblar bunu yonmağa. Yonduqca bunun yonqarını o yana atmayıblar. Bir yerə toplayıblar. Bu yonqardan mal düzəldiblər. Adam atanın da yetmiş iki uşağı olub[19].

Bu mətni İslam dini ilə əlaqələndirən yeganə fakt Adəm ata obrazıdır. İslamda və ümumiyyətlə ondan əvvəlki yəhudilik və xristianlıqda ilk insan Adəmdir. Lakin mifin məzmunu birbaşa İslam dinindəki Adəm peyğəmbərin yaradılışını əks etdirmir. Göründüyü kimi, mətndə Adam atanın Allah tərəfindən yaradıldığından söhbət getmir. Yəni Adamı palçıqdan bir nəfər yox, bir neçə nəfər düzəldib: mətndə bir yaradıcıya yox, bir neçə

---

[19] Qarabağ: folklor da bir tarixdir / I kitab. Toplayıcılar: İ.Rüstəmzadə, Z.Fərhadov. – Bakı: Elm və təhsil, – 2012, – s. 15

yaradıcıya işarə olunur. Bu da öz növbəsində mətnin əsasında ilk insan-əcdadın yaradılması haqqında mifin durduğunu göstərir.

***İkinci fəslin "Heyvanlar haqqındakı miflərdə yaranışın etiologiyası" adlanan altıncı paraqrafında*** [20] göstərilir ki,Azərbaycan folklor mətnləri heyvanların mənşəyindən, yəni yaranma səbəblərindən bəhs edən etioloji miflərlə zəngindir. Həmin zənginliyin səbəbi heyvanların ən qədim miflərin əsas qəhrəmanı olması ilə bağlıdır.

Heyvanlar aləmi növ baxımından rəngarəng olduğu kimi, bu zənginlik heyvanların mənşəyi haqqındakı miflərdə də öz əksini tapmışdır. İlkin insan onu əhatə edən dünyadakı bütün heyvanlar haqında miflər yaramışdır. Məsələn, bir mifdə dovşanın pişikdən əmələ gəldiyi göstərilir. Mətndə deyilir ki, bir gün peyğəmbər bir adama qonaq gəlir. Bu adamın çoxlu mal-dövləti olsa da, xəsisliyindən bilmədi ki, qonaq üçün nə kəssin. Axırda tutdu pişiyi kəsdi. Hər şeydən agah olan peyğəmbər kişiyə bir söz demədi, pişiyin ətini yeyib, sümüklərini bir yerə yığdı. Sonra kişidən pişiyin başını, dərisini və ayaqlarını da istədi. Peyğəmbər o pişiyi diriltdi. Sonra kişiyə qarğış elədi. İndi çöllərdə olan maral-ceyran o kişinin qoyunlarıdır, dovşan onun pişiyidir[21].

***İkinci fəslin "Bitkilərin yaranmasının etiologiyası" adlanan yeddinci paraqrafında*** [22] qeyd olunur ki, Azərbaycan folkloru bitkilərin yaranmasından bəhs edən etioloji miflərlə də zəngindir. Bu, ilk növbədə ağacların ibtidai cağlarda yaşamış insanın düşüncəsində mühüm yer tutduğunun göstəricisidir. Həm folklor mətnləri, həm də aparılmış tədqiqatlar göstərir ki, ağaclar mifologiyada canlı varlıqlar kimi təsəvvür olunmuş, insanlar

---

[20] **Paraqafda əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Quşların yaranması haqqındakı miflərin etioloji semantikası // "Filologiya məsələləri" jur., – 2020, – № 11, – s. 336-245

[21] Qarabağ: folklor da bir tarixdir / I kitab. Toplayıcılar: İ.Rüstəmzadə, Z.Fərhadov. – Bakı: Elm və təhsil, – 2012, – s. 24

[22] **Paraqafda əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Bitkilərin yaranmasının mifik etiologiyası // XXIII International SCIENTIFIC SYMPOSIUM. İntegration of Cultures and Multiculturalizm dedicated to the 305 th aneversary of Molla Panah Vagif, – 27 fevral 2022, – s. 54-59

ağacları özlərindən ayırmamış, onları hətta əcdad-valideyn kimi də qəbul etmişlər.

İnsan-bitki münasibətlərinin ilkin dünyagörüşünə məxsus xüsusiyyətləri bu əlaqələrdən danışan etioloji miflərdə öz əksini tapmışdır. Biz həmin miflərdə ağacların müqəddəs sayılmasının səbəblərini də öyrənə bilirik. Məsələn, ardıc ağacının niyə həmişə göy olmasının səbəbi haqqında olan mifdə deyilir ki, yezidlər imamları qırıb, bircə Mehdiyi Sahib Zaman qalıb, o da qaçıb ardıcın dalında qalıb. Hamısını qırıblar. Onun üçün deyir, ardıc, səni görüm göy qal[23].

Bu kiçik mətn janr tipologiyası baxımından etioloji mifdir. Ona görə ki, mətndə ardıc ağacının nə səbəbdən həmişə göy qalmasının səbəbi izah olunub.

**Dissertasiyanın** (altı paraqrafdan və altı bənddən ibarət) **"Metafiziki dünya və zaman obrazlarının yaranması haqqında etioloji miflər" adlanan üçüncü fəslində** fantastik-mifik obrazlar (hal anaları, cinlər, qaraçuxalar, ucubuluxlar), müqəddəs məkanlar, dönərgə obrazları (qurda, ilana çevrilən insanlar), daşa dönmələr, ilahi cəzalar, mifik zaman obrazları haqqındakı miflərin etioloji semantikası tədqiq olunmuşdur.

***Üçüncü fəslin "Fantastik-mifik obrazların etioloji semantikası" adlanan birinci paraqrafında*** deyilir ki, Azərbaycan mifoloji mətnlərində cin, əcinnə, pəri, məleykə, quleybanı (qulyabanı), hal anası (alarvadı), vurğun və s. kimi fantastik-mifik obrazlar var. Həmin obrazların bir çoxu haqqındakı miflər etioloji semantikası baxımından diqqəti cəlb edir. Miflərdə onların yaranış səbəbləri haqqında verilmiş bilgilər bizə türk mifik düşüncəsinin dərin qatlarına enib, ulu babalarımızın dünyanı necə dərk etmələrini öyrənməyə imkan verir.

***Üçüncü fəslin birinci paraqrafının "Hal anası (Alarvadı) obrazının etioloji xüsusiyyətləri" adlanan birinci bəndində***[24]

---

[23] Qarabağ: folklor da bir tarixdir / VI kitab. Toplayıb tərtib edən L.Qaqifqızı (Süleymanova). – Bakı: "Zərdabi LTD" MMC, – 2013, – s. 44

[24] **Bənddə əldə olunmuş nəticələr haqqında bax:** Бабаева, Н. Этиологическая семантика обазов хал и джин // "Art Philological science" colloqium journol. Warszawa, Polska, 2022, № 4, s. 47-52

göstərilir ki, Azərbaycanın bəzi bölgələrində hal, hal anası, bəzi bölgələrində alarvadı adlandırılan bu mifik obraz haqqında təkcə Azərbaycanda deyil, eləcə də oxşar adlar adı altında türk dünyasının hər yerində çoxsaylı mifik mətnlər vardır.

Hal anaları mətnlərdə zahı qadınların düşməni kimi təqdim olunur. Hal anası-Alarvadının türk xalqlarında Al, Al qarısı, Albastı, Albas, Albis, Almis, Albız, Almıs kimi adlarla tanındığını göstərən Bahaddin Uslu yazır ki, "bu pis ruh zahı qadını və uşağını öldürüb yemək istəyir"[25].

Azərbaycan folklor mətnlərindəki hal anası (alarvadı) obrazı zəngin etioloji semantikaya malikdir. Müşahidələr göstərir ki, hal obrazı bilavasitə doğum-yaradılış prosesi ilə bağlıdır. Mətnlərdən birində deyilir ki, zahı doğur, yiyəsiz qalır. Onda hal gəlib, onun iç-içalatın çəkib aparır. Yuyur axar suda, aparıb bişirib yeyir. Onnan da qadın ölür. Ona görə də deyirlər ki, doğan qadını yiyəsiz qoymazlar. Zahıya yaxın düşməməsi üçün üstünü qıyıq, iynə, başının altına çəngəl-bıçaq qoyurlar. Kişi oldu, qadın oldu, gərək həmişə üstündə qıyıq, sancaq olsun. Bir də ki o, işlənməyən paltarları, təzə paltarları aparır[26].

Hal anaları ilə bağlı mətnlərə ümumi şəkildə nəzər saldıqda görürük ki, burada hal analarının yaranışı haqqında deyil, onların insanla qarşılaşmaları zamanı baş verən hadisələrdən bəhs olunur. Həmin mətnlərdə etioloji semantika ümumiyyətlə insana düşmən olan hal analarının kimliyinin tanıdılması və insanların onlardan necə qorunmasının izahı üzərində qurulmuşdur.

***Üçüncü fəslin birinci paraqrafının "Cinlər haqqında miflərin etiologiyası" adlanan ikinci bəndində***[27] bildirilir ki, cinlər Azərbaycan folklorunda cinlərlə bağlı mətnlərin sayı son dərəcə çoxdur. Onlarla tanışlıq göstərir ki, bu mətnlərin də etioloji

---

[25] Uslu, B. Türk Mitolojisi / B.Uslu. – İstanbul: Kamer Yayınları, – 2016, – s. 45

[26] Qarabağ: folklor da bir tarixdir / I kitab. Toplayıcılar: İ.Rüstəmzadə, Z.Fərhadov. – Bakı: Elm və təhsil, – 2012, – s. 27

[27] **Bənddə əldə olunmuş nəticələr haqqında bax:** Бабаева, Н. Этиологическая семантика обазов хал и джин // "Art Philological science" colloqium journol. Warszawa, Polska, 2022, № 4, s. 47-52

semantikası eynilə hal anaları ilə bağlı mətnlərdə olduğu kimi, insanların cinlər qarşısında qorxusunu və onlardan necə qorunmağın yollarını izah etməklə bağlıdır. Çünki cinlər də hal-alarvadılar kimi ziyanverici varlıqlar hesab olunurlar.

Mətnlərdən birində deyilir ki, bizim kənddə Əliş adında bir naxırçı var idi. Gecə vaxtı onun mallarının bir hissəsi naxırdan ayrılıb, Abdal-Gülablı deyilən çaylağa gedər. Əliş kişi həmin yerə gəlib görər ki, burada geyimli-kecimli qızlar çalıb-oxuyurlar. Onlar naxırçını adı ilə çağırıb məclisə dəvət edirlər. Əliş kişi də təəccüblənir ki, bunlar məni haradan tanıyırlar? Məclisə girməyə beş addım qalmış qızlar deyirlər: "Ə, qoymayın, bunun üstündə sancaq var". Deyir, "bismillah" deyəndən sonra nə çalan, nə oynayan qaldı[28].

Mətnin etioloji semantikası insan-cin münasibətlər modelini izah edir. Yəni Əliş kişinin üstündə sancaq olmasa idi və o, "bismillah" deməsə idi, cinlərin qurbanı olacaqdı. Bu cəhətdən, mətn cinlərin yaranmasını deyil, cinlərə rast gələn insanın ondan canını necə qurtara biləcəyini izah edir.

***Üçüncü fəslin birinci paraqrafının "Qaraçuxa obrazının etioloji semantikası" adlanan üçüncü bəndində*** qeyd olunur ki, Qaraçuxa metafiziki obraz, yəni fantastik-mifik varlıqdır. Onun reallıqda heç bir analogiyası yoxdur. Mifoloji mətnlərdə insanın gözəgörünməz hamisi kimi təqdim olunur. Bu cəhətdən, qaraçuxa haqqında olan mətnlər zəngin etioloji semantikaya malikdir.

Qaraçuxa haqqında mətnlər geniş yayılmışdır. Onlardan birində deyilir ki, qaraçuxa (həqiqətən – *N.Babayeva*) var. Birinə bir bəla üz verəndə, bir çətinliyə düşəndə deyirlər, yəqin, qaraçuxan yatıb sənin. Hər bir insanın ona xoşbəxtlik gətirən ikinci bir siması, qoruyanı var. Qaraçuxanı şadlandırmaq üçün ona bir şey bişirirəm, əsas da halva. Bişirdiyindən yeməli deyilsən. Deyirsən, "bunu qaraçuxanın adına ehsan edirəm, vacibən, qürbətən iləllah". Ondan ailə üzvlərinin heç biri yemir. Çölə qoyursan ki, onu qurd-quş yeyib

---

[28] Qarabağ: folklor da bir tarixdir / I kitab. Toplayıcılar: İ.Rüstəmzadə, Z.Fərhadov. – Bakı: Elm və təhsil, – 2012, – s. 32-33

aparsın. Qaraçuxaya ehsanı istənilən gün demək olar, amma cümə axşamı, cümə günü daha yaxşı olar[29].

Göründüyü kimi, mətndə qaraçuxa obrazının etioloji kimliyi, yəni insanın onunla necə rəftar etməsi izah olunur. Aydın olur ki, mifik təsəvvürlərə görə, qaraçuxa insanın ikinci mənidir. Ruh şəklində olan bu varlıq insana xeyir də verə bilir, zərər də. Qaraçuxa insanı himayə etməyəndə, qorumayanda, iş-gücünə, mal-dövlətinə bərəkət verməyəndə insan ziyana, zərərə, cürbəcür çətinliklərə düşür. Buradan məlum olur ki, qaraçuxa insanın qoruyucusudur. Lakin onunla müəyyən qaydalar çərçivəsində hərəkət etmək lazımdır. Qaraçuxa bu qaydalara əməl edən insana xeyir-bərəkət verir, işlərini asanlaşdırır və bəlalardan qoruyur. Əksinə olanda insan ziyana düşür.

***Üçüncü fəslin birinci paraqrafının "Ucubılıx obrazının etioloji semantikası" adlanan dördüncü bəndində*** deyilir ki, Azərbaycan folklorunda nəhənglər haqqında olan mətnlər[30] etioloji semantikası baxımından diqqəti cəlb edirlər. Həmin nəhənglərdən biri Ucubılıx adlanır. Haqqında olan mətnlərdən birində deyilir ki, Ucubılıx, deyirlər, çox uca boylu, nəhəng bir adamdır. O qədər, yekə, azman bir adamdır ki, bircə onun ayaqlarını görmək olur. Ucubılığın bir adəti var: sakitliyi sevəndir. Sakitlik olanda ayda, ildə bir neçə dəfə, daha doğrusu, yazda, yayda gələr. Hələ əgər sakitlik olsa gələr. Onda əlini uzadar dərin dərənin dibinə. Orada

---

[29] Qarabağ: folklor da bir tarixdir / I kitab. Toplayıcılar: İ.Rüstəmzadə, Z.Fərhadov. – Bakı: Elm və təhsil, – 2012, – s. 78

[30] Qarabağ: folklor da bir tarixdir / I kitab. Toplayıcılar: İ.Rüstəmzadə, Z.Fərhadov. – Bakı: Elm və təhsil, – 2012, – s. 20; Qarabağ: folklor da bir tarixdir / VII kitab. Toplayıb tərtib edən L.Qaqifqızı (Süleymanova). – Bakı: "Zərdabi LTD" MMC, – 2014, – s. 14-15; Azərbaycan folkloru antologiyası. VIII kitab. Ağbaba folkloru / Toplayıb tərtib edənlər: H.İsmayılov, T.Qurbanov. – Bakı: Səda, – 2003. – s. 62-63; Azərbaycan folkloru antologiyası. XII kitab. Zəngəzur folkloru / Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərtib edənlər: ed. Ə.Əsgər, M.Kazımoğlu. – Bakı: Səda, – 2005 – s. 50; Azərbaycan folkloru antologiyası. XIII kitab. Şəki-Zaqatala folkloru / Tərtib edənlər: İ.Abbaslı, O.Əliyev, M.Abdullayeva. – Bakı: Səda, – 2005 – s. 10; Azərbaycan folkloru antologiyası. XVI kitab. Ağdaş folkloru / Toplayın tərtib edən: İ.Rüstəmzadə. – Bakı: Səda, – 2006. – s. 15-16

bir qıfıl var, onu açar. O saat çayların suyu, bulaqların suyu artar, yağış yağar. Yox, əgər sakitlik olmasa, Ucubılıx güsüb gedər, quraqlıq olar. Bar-bərəkət göyə çəkilər[31].

Bu mətn sırf etioloji mifdir. Burada insanların xeyir-bərəkət içərisində yaşamaları üçün onların Ucubılığla necə rəftar etmələri izah olunur. Burada iki cəhət əsasdır:

1) Ucubılığın su, xeyir-bərəkət hamisi kimi insanlara tanıdılması;

2) İnsanların xeyir-bərəkət içərisində yaşamaları üçün Ucubılığla necə rəftar etmələrinin təbliğ və təlqin edilməsi.

Mətndən aydın olur ki, Ucubılıx öz varlığı ilə həm də cəmiyyətdə sülh, əmin-amanlıq, sosial harmoniya (nizam-intizam) yaradılmasına xidmət edir.

***Üçüncü fəslin "Müqəddəs məkanlar haqqında miflərin etiologiyası" adlanan ikinci paraqrafında*** göstərilir ki, etioloji miflərin bir hissəsini insanların müqəddəs hesab etdikləri məkanlar haqqında mövcud olan mətnlər təşkil edir. Azərbaycanda belə məkanlar dedikdə müxtəlif pirlər, ocaqlar, ziyarətgahlardır. Həmin məkanların necə yaranması haqqında olan mətnlər, adətən, rəvayət janrında olur. Məlumdur ki, rəvayətlər onlarda təsvir olunan hadisələrin doğruluğuna, həqiqiliyinə inanılan mətnlərdir. Bu cəhətdən, insanlar pirlərin, ocaqların kəramətinə, möcüzəsinə inandıqları kimi, pir, ocaq sahibi haqqında əhvalatların da həqiqiliyinə inanırlar. Bütövlükdə götürdükdə müqəddəs hesab edilən məkanlar haqqında mətnlər rəvayət və əfsanə janrlarında olur. Rəvayət və əfsanələrin də poetik xüsusiyyətləri baxımından bir-birinə çox yaxın olduğu məlumdur.

Pir, ocaq, ziyarətgahlar haqqında olan mətnlərin əsas poetik əlaməti onların bilavasitə etioloji funksiyaya xidmət etməsidir. Yəni hər bir ziyarətgahın öz hekayəsi var və bu hekayədə həmin məkanın niyə ziyarət olunmasının səbəbləri izah olunur. Bu

---

[31] Azərbaycan folkloru antologiyası. VIII kitab. Ağbaba folkloru / Toplayıb tərtib edənlər: H.İsmayılov, T.Qurbanov. – Bakı: Səda, – 2003. – s. 62-63

cəhətdən, müqəddəs məkanlar haqqında olan mətnlər bilavasitə etioloji-izahedici mətnlərdir.

***Üçüncü fəslin "Dönərgə obrazlarının etiologiyası" adlanan üçüncü paraqrafında*** bildirilir ki, miflər məzmunu baxımdan rəngarəng olur: onlarda ibtidai insanın həyatının yaşadığı dünyanın varlıqları obrazlaşır. Bu cəhətdən qurd və ilan haqqında olan miflər etioloji semantikası baxımından diqqəti cəlb edir.

***Üçüncü fəslin üçüncü paraqrafının "Qurda çevrilən insanlar haqqında miflər" adlanan birinci bəndində*** qeyd olunur ki, dönərgə obrazlarının ən məşhurlarından biri insan-qurddur. Onlar haqqında olan mətnlərdən birində deyilir ki, bir arvad dar vaxtı bayıra çıxır. Başına dəri atırlar, olur canavar. Bir müddət canavarlarla gəzir. Bir gün onlar bir ata hücum edirlər. Bu adam-canavarın ağzı atın belindəki yaraya dəyir. Arvad o saat canavar dərisindən çıxıb, evə gəlir. Uşaqlar onu evə qoymaq istəmirlər. Deyirlər ki, dişlərin vəhşi heyvan dişlərinə oxşayır. O da başına gələnləri uşaqlarına nəql eləyir[32].

Qurda çevrilən insanlar haqqında mifoloji mətnlər çoxdur. Onların hamısı vahid etioloji xətdə birləşir. Həmin mətnlərin təhlili bizə onların aşağıdakı etioloji xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir:

a) Qurda (canavara) çevrilmə haqqında miflər çevrilmənin ilk növbədə səbəb və şəraitini izah edir. Məlum olur ki, bu çevrilmələr "dar vaxtı" (şər qarışan vaxt, şam namazının vaxtında, axşam düşəndə) baş verir.

b) Mətnlərdə qurda çevrilən insanların su ilə yuyunmalarının xüsusi vurğulanması çevrilmənin hansısa formada su stixiyası (ünsürü) ilə bağlı olduğunu göstərir. Su mifologiyada həyat mənbəyi (kosmik ünsür) sayıldığı kimi, şər mənbəyi də (xaotik ünsür) hesab olunur. Görünür, burada əsas olan keçid məsələsidir. "Dar vaxtı" gündüzün gecəyə keçdiyi zamandır. Su da keçidlə bağlıdır.

---

[32] Azərbaycan folkloru antologiyası. XII kitab. Zəngəzur folkloru / Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərtib edənlər: ed. Ə.Əsgər, M.Kazımoğlu. – Bakı: Səda, – 2005 – s. 67

c) Dar vaxtı çölə çıxan insanın başına qurd donunu elə canavarların özləri atırlar.

ç) Qurda çevrilmiş insanı bu bəladan qurtarmağın yeganə yolu qurd donunu məhv etməkdir.

e) Qurda çevrilmiş insanlar cəmiyyətdə fərqləndirilir və onların adlarının qabağına "qurd" sözü əlavə olunur: Qurd Zöhrə, Qurd Zalxa və s.

***Üçüncü fəslin üçüncü paraqrafının "İlan-insan çevrilmələri haqqında miflər" adlanan ikinci bəndində*** deyilir ki, Azərbaycan folklorunun sirli-sehrli obrazlarından olan ilan həm də çevrilmə funksiyası ilə sıx şəkildə bağlıdır. Folklordakı mifik-fantastik səciyyəli ilan-insan obrazı çevrilmə ilə əlaqədar olub, zəngin etioloji semantikaya malikdir. Əfsanələrdən birində deyilir ki, bir oğlan qayalıqda gəzdiyi yerdə bir çılpaq qıza rast gəlir. Qız ondan paltar istəyir. Oğlan qızı geyindib evinə gətirir. İstəyir, onunla evlənsin. Bir dərviş gəlib ona deyir ki, bu qız insan cildinə düşmüş ilandır. Evlənsən, səni öldürəcək. Oğlan dərvişin sözlərinə inanmır. Dərviş deyir ki, inanmırsan yoxla. Qıza çoxlu duzlu yemək ver, evə də su qoyma, qapını bağlayıb gizlən, bax gör, nə olur. Oğlan dərvişin dediyi kimi edir. Görür ki, qız evdə su tapa bilmədi, qapı da bağlı olduğu üçün çölə çıxa bilmədi. Birdən nazik bir ilana çevrilib, deşikdən çıxdı çölə. Su içib qayıtdı içəri, yenə də düşdü qız cildinə. Oğlan dərvişin sözlərinə inanır və ondan nə etmək barədə məsləhət istəyir. Dərviş də deyir ki, qız çörək bişirəndə onu təndirə itələyib yandır. Oğlan dərvişin öyrətdiyi kimi edir. Ancaq qız yanmır, qızıla çevrilir, dərviş də onu götürüb qaçır. Oğlan dərvişi tuta bilməyib, kor-peşman evinə qayıdır. O gündən oğlanın heç bir işi düz gətirmir. Hara gedirsə, əliboş qayıdır. Yeməyə quru çörəyi də olmur[33].

Bu əfsanənin əsasında, bünövrəsində etioloji mif durur. Mətnin etioloji semantikası ilanlarla sayğılı rəftar etmək üzərində qurulmuşdur. Belə ki, ilan-qızın oğlana bəxş etdiyi xoşbəxtlik onun ilan kultuna olan inamsızlığı ucbatından bədbəxtliyə çevrilir.

---

[33] Azərbaycan mifoloji mətnləri / Tərtib edəni, ön sözün və şərhlərin müəllifi: A.Acalov. – Bakı, Elm, – 1988, – 196 s. 107

Mətnin etioloji ritorikası məhz bu məqamın üzərində qurulmuşdur. Oğlan qızın dönərgə olduğunu, başqa sözlə, ilan kultu ilə bağlı varlıq olduğun biləndən sonra onun xeyir-bərəkətinə sığınmaq əvəzinə, ilan-qızı məhv etmək yolunu tutur və bununla da özünü bədbəxt edir. Beləliklə, mətnin etioloji semantikası ilan inancının təbliği üzərində qurulmuşdur.

***Üçüncü fəslin "Daşa dönmənin etioloji semantikası" adlanan dördüncü paraqrafında*** göstərilir ki, Azərbaycan folklor mətnlərində daşa dönmə motivinin əsasında etioloji miflər durur. Belə ki, daşa dönmə müxtəlif səbəblərdən baş verir: etioloji mif bu səbəbin izahı üzərində qurulmuşdur. Daşa dönmə bəzi mətnlərdə cəza, bəzilərində isə pis vəziyyətdən çıxış yolu kimi təzahür edir.

Bir mətndə deyilir ki, Qaraqoyunlu dərəsində uzun illərdən bəri xalqın inam yerləri, sitayiş etdikləri bir neçə pir var. Bu pirlərdən ən məşhuru Murğuz piridir. Bu pir haqqındakı əfsanədə deyilir ki, qızmar yay günlərindən biri imiş. Çoban bərk susayıbmış, yaxınlıqda bulaq yoxmuş. Çoban üzünü qibləyə tutaraq Allaha yalvarır ki, ey yeri-göyü, ərşi-kürşü yaradan, sənə qurban olum, əgər rəhmin varsa, mənə yazığın gəlsin, burada bir bulaq yarat. Qoy həm mən, həm də qoyunların doyunca su içsin. Mən sənə bir qara və bir ağ qoç qurban kəsəcəm. Allah-taala elə o andaca bir sərin bulaq yaradır. Çoban sudan doyunca içir, çörəyini çıxarıb yeyir, rahatlanır. Qızmar gündə paltarını soyunub bitlənir. Bitlənən zaman bir qara və bir ağ bit öldürür və deyir ki, al bu da sənə qurban. Deyilənə görə, qurban olduğum, onu elə oradaca qoyunları ilə bərabər daşa döndərir[34].

Əfsanənin əsasında etioloji mif durur. Mətndə pirin yaranmasının səbəbi izah olunur. Mətnin əsasını təşkil edən mif etioloji semantikası baxımından kult-pərəstiş miflərinə aiddir. Çünki mifin əsasında kultu qarşı sayğısızlığın cəzalandırılması ideyası durur. Mif təlqin edir ki, kulta qarşı çıxanlar kult sahibi tərəfindən hökmən cəzalandırılacaqlar.

---

[34] Azərbaycan folkloru antologiyası. VII kitab. Qaraqoyunlu folkloru / Toplayıb tərtib edənlər: H.İsmayılov, Q.Süleymanov. – Bakı: Səda, – 2003. – s. 67-68

***Üçüncü fəslin "İlahi cəza etioloji yaradılış formulu kimi" adlanan beşinci paraqrafında*** bildirilir ki, Azərbaycan əfsanə və rəvayətlərində bir çox mətnlərdə yeni yaradılış ilahi cəza formasında həyata keçirilir. Həmin mətnlərin etioloji semantikasının əsasında varlıq aləminin sosial-kosmik nizamını pozanlara Allah tərəfindən cəza verilməsi motivi durur.

Bu tipli mətnlərə çörəyin ərşə çəkilməsi haqqında mətnlər də aiddir. Onlardan birində deyilir ki, bir ailə qoyun yatağında imiş. Gəlin yuxa bişirirmiş. Bunun uşağı özünü batırır. Gəlinin əlinə bir şey keçmir, götürür yuxa ilə uşağın yanını silir. Allah-taalanın buna açığı tutur. Çörəyi, unu, ruzini yoxa çıxarır. Bir azdan itlər acından ulayır. Allah-taalanın itlərə yazığı gəlir. Təzədən ruzi yollayır, amma itlərin ulaşmağına görə yollayır ruzini. Ruzini itə verir. Onun üçün deyirlər ki, çörək itin üzünədir. Həmişə dədəm deyirdi ki, a bala, yediniz, yaxşı elədiniz, di aparın, itin də payını verin. Bu ruzini bizə itə görə veriblər.

İndi adətdir, təndirdə çörəyi bişirəndə çörəyin birini çıxarırlar, təndirin yanında vedrədə su olur. Salıb ora soyudurlar, verirlər itə. Yoxsa o it yatmaz, ayaq üstə durub zingildəyər[35].

Bu mətnin əsasında etioloji mif durur. Burada insanlar arasında çörəyin niyə qəhətə çəkilməsinin, az olmasının, ruzinin niyə çətin tapılmasının səbəbi izah olunur. Mifin etioloji məntiqinə görə, bütün bunların səbəbi insanların çörəyə qarşı nankorluğu, onunla hörmətsiz rəftar etmələridir. Uşağının yanını yuxa ilə silən gəlinin hərəkəti Allahı qəzəbləndirir və o, əvvəlki bolluğu aradan qaldırır.

***Üçüncü fəslin "Mifik zaman obrazlarının etioloji məna xüsusiyyətləri" adlanan altıncı paraqrafında***[36] qeyd olunur ki, miflərin etioloji semantikası baxımından təqvim mifləri də maraqlı məna xüsusiyyətləri ilə fərqlənir. Biz bu mətnlərdə mifik zamanın özünəməxsus keyfiyyətlərinin etioloji baxımdan necə

---

[35] Qarabağ: folklor da bir tarixdir / I kitab. Toplayıcılar: İ.Rüstəmzadə, Z.Fərhadov. – Bakı: Elm və təhsil, – 2012, – s. 19-20

[36] **Paraqafda əldə olunmuş nəticələr haqqında bax:** Babayeva, N. Mifik zaman obrazlarının etioloji məna xüsusiyyətləri // VII Respublika Elmi Qaynaqlar Konfransının materialları, – Bakı, – 4 may 2022, – s. 34-36

mənalandırılmasını müşahidə edə bilirik. Məs., Martla qarı haqqında olan mifdə deyilir ki, mart ayı başa çatan kimi qarı oğlaqlarını düzə çıxardı. Oğlaqlar atılıb-düşə-düşə hərləndi, sonra otlamağa başladı. Qarı bunu görüncə əlini Martın arxasınca uzadıb dedi:

Mart, gözünə barmağım,
Dingildəşir oğlağım.

Bu sözü eşidən kimi Mart çox pərt oldu. Tez Aprelin yanına gedib, yalvar-yaxarla üç gün ondan borc aldı. Elə əsib-coşdu ki, qarının oğlaqları yol tapa bilməyib, elə düzdə qırılıb qaldı. Qarı güc-bəla ilə borandan yaxa qurtarıb, evə, təndirin başına gəldi. Bikef halda ayaqlarını qucaqlayıb oturdu. Bu vaxt Mart damın bacasına çıxıb, oradan qarıya belə dedi:

Qarı, gözünə barmağım,
Dingildəşirmi oğlağın?[37]

Bu mətn janr tipologiyası baxımından təqvim mifidir. Burada zamanın müxtəlif dövrlərinin obrazları ilə qarşılaşırıq. Mart adı altındakı personaj elə mart ayıdır. Qarı isə mürəkkəb obrazdır. O, ili təmsil edir. Qarı ilə Mart arasındakı ziddiyyət qışla yaz arasındakı ziddiyyəti əks etdirir.

Mifdə zaman obrazları arasında əks olunan bu münasibətlər insanların gerçək həyatda müşahidə etdikləri zaman münasibətlərini ifadə edir. Bu mifin etioloji semantikası elə bununla bağlıdır. İnsanlar martın ayının tez keçməsini, yazın tez gəlməsini istəyirlər. Bu cəhətdən, mart ayında hava çox dəyişkən olur: bəzən lap isti günlər, bəzən də qışdakı kimi soyuq günlər olur. Mif insanların zaman təcrübəsini özündə əks etdirərək, onlara izah edir ki, mart ayının günəşli havalarına aldanmaq, mal-heyvanı pəyələrdən tez çıxarmaq, sürüləri otlaqlara tez aparmaq olmaz. Ona görə də insanlar mart ayına etibar etmir, onu dəyişkən xarakterli, hirsli, əsəbli ay hesab edirlər.

Dissertasiyanın **"Nəticə"** hissəsində əldə olunmuş nəticələr ümumiləşdirilir və nəzəri müddəalar halında təqdim olunur:

---

[37] Azərbaycan folkloru antologiyası. VIII kitab. Ağbaba folkloru / Toplayıb tərtib edənlər: H.İsmayılov, T.Qurbanov. – Bakı: Səda, – 2003. – s. 128

1. Dünya folklorşünaslığında ortaya qoyulmuş mif təsnifatlarının heç də hamısında etioloji miflər ayrıca qrup şəklində göstərilməmişdir. Aydın oldu ki, bunun əsas səbəbi "etioloji mif" anlayışı ilə "miflərin etioloji funksiyası" anlayışı arasında məna sərhədlərinin yumşaq, qarışıq, dolaşıq olmasıdır. Belə ki, məzmunundan və buna uyğun olaraq tematik növündən asılı olmayaraq, bütün miflər etioloji funksiya daşıyır. İstər "etioloji mif" adı altında digər miflərdən fərqləndirilən miflər, istərsə də bütün digər mif qruplarının hamısı etioloji funksiyaya malikdir.

2. Miflərin etioloji funksiyası mətnlərin hamısında eyni dərəcədə təzahür etmir. Elə miflər vardır ki, bunlar bilavasitə yaranışın səbəbini izah edir, elə miflər də vardır ki, burada yaranış prosesinin səbəbləri dolayısı şəkildə izah olunur və daha çox mifin məzmununun əqli nəticəsi kimi ifadə olunur. Bununla aydın olmuşdur ki, etioloji miflər məzmunca sadə olub, bilavasitə (birbaşa) yaranışın səbəbini izah edən miflərdir. Bunlar mif yaradıcılığının ən qədim dövrünə aiddir.

3. Etioloji miflərin daha bir əsas problemi onların kosmoqonik miflərlə qarışıq düşməsidir. Etioloji miflər yaranışın mahiyyətinə varmadan qısa şəkildə onu səbəbini (mənşəyini) izah edir, kosmoqonik miflər isə yaranışın səbəbi ilə bərabər, onun mahiyyətini, dünyanın mövcud quruluşunun səbəb və nəticəsini də izah edir.

4. Dünyanın yaranması haqqında miflərin etioloji semantikası göstərdi ki, bu miflər dünyanı həm bütövlükdə, həm də onun ayrı-ayrı ünsürləri səviyyəsində təsvir və izah edir. İnsan bu təsvirlər vasitəsilə mövcud olduğu dünyanı tanıyır, onun yaranma səbəblərini bilirdi.

5. Metafiziki dünya və zaman obrazlarının yaranması haqqında etioloji miflərin tədqiqi göstərdi ki, onların etioloji semantkası insanın həmin varlıqlarla necə rəftar etmələrinin üzərində qurulmuşdur.

6. Araşdırma müqəddəs məkanlar haqqında miflərin etioloji funksiyasının kult miflərinin tipoloji xüsusiyyətləri ilə bağlı olduğunu göstərdi. Belə müqəddəs yerlər (pirlər, ocaqlar, ziyarətgahlar) hansısa müqəddəsin kultu ilə bağlı olur. Bu

baxımdan, həmin miflərin etioloji semantikası kultun mövqeyinin və nüfuzunun qorunmasına xidmət edir.

7. Dönərgə obrazlarının etioloji semantikasının araşdırılması göstərdi ki, bu miflər insana zamanı düzgün nizamlamağı, zamanın semantik dəyərlərinə uyğun rəftar etməyi izah edir.

8. Tədqiqatda aydınlaşdırıldı ki, mifik zaman obrazları da daxil olmaqla bütün etioloji miflər yaradılışın səbəbini izah etməklə insana dünyada öz yerini düzgün şəkildə tutmağı və onu əhatə edən dünya ilə nizam-harmoniya içərisində yaşamağı öyrədir.

**Disertasiyanın əsas nəticələri və yenilikləri müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Miflərin təsnifatı və etioloji miflərin bu təsnifatdakı yeri // “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər” jur., 2018, № 2, s. 124-131

2. Quşların yaranması haqqındakı miflərin etioloji semantikası // “Filologiya məsələləri” jur., 2020, № 11, s. 336-245

3. Etioloji miflər və kosmoqoniya // “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər” jur., 2021, № 2, s. 130-140

4. Prof. Ramazan Qafarlının tədqiqatlarında etioloji mif probleminə baxış // ““Ziyalı işığında” Ramazan Qafarlı – 70” beynəlxalq elmi simpoziumu, 15-16 iyul 2021, s. 210-217

5. Dünyanın yaranması haqqında miflərin etioloji semantikası // “Filologiya məsələləri”, 2021, № 11, s. 286-294

6. Oğuz Kağan” dastanında kosmoqoniya və etiologiya // “Dil və ədəbiyyat” beynəlxalq elmi jurnalı, 2021, № 2, s. 355-361

7. Astral cismlər barəsindəki miflərin etioloji məna aləmi // İnternational SCIENTIFIC SYMPOSIUM. “New Approaches and Searches in Science”, Ankara, Türkiyə, 2021 Dekabr 2-3, s. 50-57

8. Этиологическая семантика обазов хал и джин // “Art Philological science” Colloqium journal. Warszawa, Polska, 2022, № 4, s. 47-52

9. Mifik zaman obrazlarının etioloji məna xüsusiyyətləri // VII Respublika Elmi Qaynaqlar Konfransının materialları, 4 may 2022, s. 34-36

10. Bitkilərin yaranmasının mifik etiologiyası // XXIII International SCIENTIFIC SYMPOSIUM. İntegration of Cultures and Multiculturalizm dedicated to the 305 th aneversary of Molla Panah Vagif, 27 fevral 2022, s. 54-59

11. Günəş haqqında miflərin etioloji semantikası // "Dədə Qorqud" jur., 2022, № 3, s. 69-78

Dissertasiyanın müdafiəsi 18 mart 2025-ci il tarixində saat 14⁰⁰ AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR Prezidenti yanında Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

**Çapa imzalanıb: 04.02.2025**

**Kağızın formatı: 60*84/$^{1/16}$**

**Həcmi: 37 440 işarə**

**Tiraj: 100 nüsxə**